AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
BAKI ŞƏHƏRİ üzrə TƏHSİL İDARƏSİ

ƏMR

№ F-266

Bakı şəhəri "13" 06 2019 il

"Ən yaxşı məktəb saytı" müsabiqəsinin keçirilməsi barədə

Məktəb saytlarının fəaliyyətinin səmərəliliyinin artırılması, bu sahədə təcrübə mübadiləsinin genişləndirilməsi və təhsil müəssisələrinin həyatındakı yeniliklərin ictimaiyyətə daha operativ çatdırılması məqsədilə

**ƏMR EDİRƏM:**

1. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (bundan sonra – İdarə) tabeliyindəki ümumi təhsil müəssisələri arasında "Ən yaxşı məktəb saytı" müsabiqəsi (bundan sonra – Müsabiqə) keçirilsin.

2. Müsabiqənin Əsasnaməsi və Münsiflər heyətinin tərkibi təsdiq edilsin (əlavə edilir).

3. İctimaiyyətlə əlaqələr sektoru (B.Məmmədov) müsabiqənin Əsasnaməyə uyğun təşkil edilməsini, müsabiqənin kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılmasını və İdarənin internet resurslarında yerləşdirilməsini təmin etsin.

4. İdarənin tabeliyində olan təhsil müəssisələrinin rəhbərləri təqdim olunan Əsasnaməyə uyğun olaraq, müsabiqənin keçirilməsi ilə bağlı üzərlərinə düşən işlərin yerinə yetirilməsini təmin etsinlər.

5. Maliyyə və mühasibatlıq sektoru (E.Mehdiyeva), Təminat və təchizat sektoru (Ş.İsgəndərov) müsabiqə qaliblərinin mükafatlandırılması ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

6. Ümumi sektor (S.Rəsulova) əmrin əlavələrlə birlikdə çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

7.Bu əmr qüvvəyə mindiyi tarixdən İdarənin F-381 nömrəli, 21.11.2018-ci il tarixli əmri qüvvədən düşmüş hesab edilir.

8. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Əsasnaməsinin 5.6.6-cı bəndi, 2019-cu il üçün Fəaliyyət Planı.

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri** **Rəşad Tağıyev**

DƏFTƏRXANA

ƏSLİ İLƏ DÜZDÜR

ƏSLİ İLƏ DÜZDÜR
DƏFTƏRXANA

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin
13 iyun 2019-cu il tarixli F-266 nömrəli
əmri ilə təsdiq edilmişdir.

**"Ən yaxşı məktəb saytı" müsabiqəsinin keçirilməsi barədə**

**ƏSASNAMƏ**

Bu Əsasnamə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (bundan sonra – İdarə) tabeliyində olan ümumi təhsil müəssisələri arasında "Ən yaxşı məktəb saytı" müsabiqəsinin (bundan sonra – Müsabiqə) təşkili və keçirilməsi qaydalarını müəyyən edir və müsabiqənin keçirilməsi ilə əlaqədar məsələləri tənzimləyir.

**1. Müsabiqənin məqsədi**

Müsabiqə məktəb saytlarının fəaliyyətinin səmərəliliyinin artırılması, bu sahədə təcrübə mübadiləsinin genişləndirilməsi və təhsil müəssisələrinin həyatındakı yeniliklərin ictimaiyyətə daha operativ çatdırılması məqsədilə həyata keçirilir.

**2. Müsabiqə iştirakçıları**

Müsabiqədə İdarənin tabeliyindəki ümumi təhsil müəssisələri iştirak edir.

**3. Münsiflər heyəti**

Müsabiqənin Münsiflər heyətinin tərkibi İdarənin müdiri tərəfindən təsdiq edilir və Heyət, bu Əsasnaməyə uyğun olaraq müsabiqə qaliblərinin seçilməsini təmin edir.

**4. Müsabiqənin keçirilmə dövrü**

Tədris ili ərzində 1 (bir) dəfə

**5. Müsabiqə qaliblərinin müəyyənləşdirilməsi şərtləri**

5.1. Müsabiqənin qalibləri aşağıdakı şərtləri daha mükəmməl şəkildə yerinə yetirmiş ümumi təhsil müəssisələri arasından seçilir:

5.1.1. İnternet informasiya resurslarının fəaliyyətinə dair tələblərə uyğun olaraq, ümumi təhsil müəssisələrinin saytlarının məzmun baxımından müvafiq meyarlara cavab verməsi, məktəblərin fəaliyyətinin geniş ictimaiyyətə operativ çatdırılması, əldə olunan uğurlar və qarşıda duran vəzifələr haqqında dolğun informasiyaların verilməsi;

5.1.2. Saytlarda xəbərlərin mütəmadi yerləşdirilməsi və yenilənməsi;

5.1.3. Saytlarda yerləşdirilən xəbərlərin səlisliyi və dolğunluğu;

5.1.4. Saytlardakı "Haqqımızda" bölməsinin əhatəli və məzmunlu mətnlə təmin olunması, bölməyə məktəbin ümumi vəziyyətini əks etdirən fotoşəkillərin yerləşdirilməsi;

5.1.5. Saytlardakı "Fəaliyyət" bölməsinin müvafiq qaydalara uyğun tərtib olunması;

5.1.6.Saytlardakı "Fotoqalereya" və "Videoqalereya" bölmələrinin keyfiyyət və məzmun baxımından zənginləşdirilməsi;

5.1.7. Saytlardakı "Rəhbərlik", "Pedaqoji heyət" və "Şagird və kadr" bölmələrinin mövcud vəziyyətə uyğunlaşdırılması və dərs cədvəllərinin yenilənməsi.

**6. Qaliblərin müəyyənləşdirilməsi və mükafatlandırılması qaydası**

6.1. Qaliblər paytaxtın hər rayonu üzrə 1 (bir) məktəb olmaqla bu Əsasnamənin 5-ci bəndinin şərtlərinə uyğun olaraq, Münsiflər heyəti tərəfindən seçilir.

6.2. Qaliblər tədris ili ərzində 1 (bir) dəfə (iyun ayı) seçilərək elan edilir.

6.3. Müsabiqə qalibləri İdarə tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılır.

6.4. Qaliblər haqqında məlumat İdarənin rəsmi internet resurslarında yerləşdirilir.